# Üçrəngli bayrağımız milli qürurumuz, güvənc yerimizdir

*"Azərbaycan bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir."*
***Heydər Əliyev.***

Müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ona görə də özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız bizim milli qürurumuzdur.

Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət bayrağımız- milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır.

İkinci dəfə üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkəmizin milli dövlət rəmzlərini uca tutur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması haqqında, eləcə də 2009-cu il noyabrın 17-də Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında imzaladığı sərəncamlar dövlətimiz tərəfindən milli atributlarımıza verilən yüksək dəyərdir. Bundan başqa, regionlarda Bayraq meydanlarının yaradılması cəmiyyətimizdə, xüsusilə də gənclərimizdə vətənpərvərlik hisslərinin güclənməsinə xidmət edir.

Azərbaycan bayrağı millətimizin və dövlətimizin simvoludur. Xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin ifadəsi, hörmət və ehtiramının tək ünvanı olan Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərdə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılır. Bir neçə ildir ki, müstəqil Azərbaycan dövlətinin bayrağı işğaldan azad edilmiş Lələtəpə yüksəkliyində, Cocuq Mərcanlı və Günnüt kəndlərində, Qızılqaya zirvəsində qürurla dalğalanırdısa, bu gün artıq Azərbaycanın incisi Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda və düşmənlərdən azad edilmiş digər torpaqlarımızda da dalğalanır. Hər gün yeni bir ünvana sancılır. Bayrağımızın, bütövlükdə, Qarabağda dalğalanacağı gün isə uzaqda deyil.

Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Bu gün ən yüksək zirvələrdə dalğalanan, üçrəngli bayrağımız sentyabr ayının 27-dən başlayaraq dövlətimizin gücünü və xalqımızın milli birliyini, həmrəyliyini bir daha nümayiş etdirir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Bayrağımız mübarizə əzmimiz, zəfər soraqğımız, istiqlaliyyət salnaməmizdir"

**«Qəbələ»**

# Qəbələdə 10 şəhid ailəsi və Qarabağ müharibəsi əlillərinə fərdi yaşayış evləri təqdim edilib

Noyabırın 12-də Qəbələ rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 10 şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə fərdi yaşayış evləri təqdim edilib. Təqdim etmə mərasimində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və Qəbələ rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev iştirak ediblər. Bildirilib ki, dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub və onlardan artıq böyük əksəriyyəti sahiblərinə təqdim edilib. Tədbirdə yeni fərdi evlə təmin olunan şəhid ailələrinin üzvləri, müharibə əlilləri ərazilərimizin Ermənistanın işğalından azad edildiyinə görə fərəh və sevinclərini bölüşüblər. Onlar tariximizə şanlı qəhrəmanlıq səhifəsi kimi qızıl hərflərlə yazılan Böyük Qələbəyə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin



minnətdarlıq duyğularını ifadə ediblər. Yenilməz Ordumuzun dünya hərb tarixinə əbədi həkk olunan uğurlu hərbi əməliyyatlarından, Azərbaycan əsgərinin haqq savaşında yüksək vətənpərvərliyə və döyüş hazırlığına əsaslanan misilsiz rəşadətindən iftixar hissi keçirdiklərini vurğulayıblar. Şəhid ailəsi üzvləri və müharibə əlilləri onların sosial müdafiəsinə daim xüsusi qayğı göstərilməsindən də razılıqla bəhs edib, bu qayğıya və yeni evlə təmin edildiklərinə görə dövlət başçımıza təşəkkürlərini ifadə ediblər. Prezident İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşəcəklərini, bu sarsılmaz birliyin qarşıdakı dövrdə də xalqımıza daim qələbələr gətirəcəyini vurğulayıblar.

# Qəbələ Rayon İcra Hakimiyyəti yanında yaradılan ictimai şuraya seçkinin təşkil edilməsi haqqında

Azərbaycan Respublikasının "İctimai iştirakçılıq haqqında" 22 noyabr 2013-cü il tarixli 816-IVQ nömrəli Qanununa, Azərbaycan Respublikası Prezidentinin "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanunun tətbiqi barədə 16 yanvar 2014-cü il tarixli 89 nömrəli fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında 30 may 2014-cü il tarixli 171 nömrəli qərarına əsasən, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci maddəsini rəhbər tutaraq qərara alıram:

I. Qəbələ Rayon İcra Hakimiyyəti yanında (rayon icra hakimiyyətinin əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən isə 5 üzv) ictimai şuraya seçkinin təşkil edilməsi məqsədilə 9 nəfərdən ibarət aşağıdakı tərkibdə seçki komissiyası yaradılsın.

| | | |
|---|---|---|
| **Seçki komissiyanın sədri** | | |
| 1. | Ağasəfov Abil Adil oğlu | Qəbələ RİH başçının birinci müavini, YAP Qəbələ Rayon Təşkilatının sədri |
| **Seçki komissiyanın üzvləri** | | |
| 2. | Cəfərov Zülfüqar Cəfər oğlu | Qəbələ RİH başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| 3. | Hüseynov Absalam Zahid oğlu | Qəbələ RİH başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı |
| 4. | Şirinov Anar Tofiq oğlu | Qəbələ RİH başçısı aparatının böyük məsləhətçi - Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi, YAP Qəbələ Rayon Gənclər Birliyinin sədri |
| 5. | Nəzirov Yaşar Sabir oğlu | Qəbələ Rayon Təhsil Şöbəsinin müdir müavini |
| 6. | Bayramova Sədaqət Əflatun qızı | Qızıl Aypara Cəmiyyətinin Qəbələ Rayon Bölməsinin sədri |
| 7. | Hacıyev Tahir İbrahim oğlu | Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü |
| 8. | Sabirli Pərviz Çingiz oğlu | Dİ və İXİHİ-nın Qəbələ rayon şöbəsinin sədri |
| 9. | Səhrablı Mehrab Mirzə oğlu | Qəbələ Regional QHT Resurs və Təlim Mərkəzinin İcraçı direktoru |

# Xüsusi karantin rejimi tələblərinin yerinə yetirilməsi məqsədi ilə reydlər davam etdirilir

11 noyabr 2020-ci il tarixində mobil qruplar tərəfindən koronavirus (COVİD-19) infeksiyasının rayon ərazisində yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması istiqamətində reydlər davam etdirilib. Xüsusi karantin rejimi ilə bağlı rayonun ticarət, ictimai iaşə və digər obyektlərində müəyyən edilmiş qaydalara əməl olunması vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək üçün baxış keçirilib. Aparılmış reydlər zamanı tibbi maskadan istifadənin, sosial məsafənin saxlanılmasının və digər karantin qaydalarına əməl etməyin vacibliyi bir daha vətəndaşların diqqətinə çatdırılmışdır. Gün ərzində ümumilikdə 70 ticarət obyektinə və 77 digər obyektə baxış keçirilib. Karantin qaydalarını pozduğu üçün 1 nəfər Qəbələ şəhər sakininə və 2 nəfər ticarət obyektinin işçisi İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə



hər biri 100 manat məbləğində cərimə olunmuşdur. 1 dünyasını dəyişmiş mərhumun ailəsinə yas mərasiminin keçirilməməsi ilə bağlı xəbərdarlıq edilib. Bu istiqamətdə reydlər və maariflendirmə tədbiləri davam etdiriləcək.

# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Qəbələ rayon Daşca kənd sakini Əsədov Teyfur Əsədi oğlu tərəfindən

# Müraciət

Cənab Prezident, Ali Baş Komandan, Sizin hərtərəfli düşünülmüş dövlətçilik siyasətiniz, vətən müharibəsində gecənizi-gündüzünüzə qatıb Azərbaycan ordusuna rəhbərliyiniz, qalib bir sərkərdə kimi fəaliyyətiniz bir azərbaycanlı kimi məni sonsuz qürurlandırır. Dünya mediasına müsahibələriniz qalib gələn Azərbaycan ordusuna bir ordu qədər dəstək olur. Var olun. Qələbə bizimdir, Qarabağ Azərbaycandır. Birliyimiz gücümüzdür. Bütün Azərbaycan xalqı sizin arxanızdadır. Sağ olun!

**Hörmətlə: Teyfur Əsədov.**

# Qəbələdə «Əsgərə məktub» layihəsi davam edir

Müharibə şəraitində vətəndaşlarımızın ordumuza sevgisi təqdirəlayiqdir. Respublikamızda həyata keçirilən layihələrdən biri "Əsgərə məktub"dur. Vətəndaşlar tanımadıqları əsgərlərə məktublar yazır, onlara arzu və istəklərini bildirirlər. Arzuların, istəklərin məzmunu xalqın arzusudur, istəyidir: torpaqlarımız işğaldan azad edilsin. Hər məktub bir ürəyin diqtəsidir, hər məktub bir vətəndaşın ordumuza, ordumuzun əsgərinə səmimi müraciətidir. Qəbələ "ASAN xidmət" mərkəzi tərəfindən ayrılmış xüsusi məntəqələrə yaxınlaşaraq hər bir Azərbaycan vətəndaşı mənəvi dəstəyini əsgərlərimizə göstərə bilər. Dövlətimiz tərəfindən hər cür maddi-texniki resurslarla təmin olunmuş Azərbaycan əsgərinə ən böyük ehtiyacı olan mənəvi dəstəyi vətəndaşlarımızın ünvanladığı məktublarla çatdıracaqlar. Xalqımızın birliyini simvolizə edəcək toplanan bütün məktublar cəbhə bölgəsində döyüşən əsgərlərimizə çatdırılacaqdır.

